# Gəraylı eli

Gəraylı, Xorasan, Gürgan (Astarabad) və Mazandaranda bir Türk tayfasıdır. Etimad əl-Səltənəyə görə, Gəraylılar, bir zamanlar Monqolustanın qüdrətli tayfalarından olmuş və başçıları Van Xan 1203-cü ildə Çingiz Xan tərəfindən yenilmiş olan Kereitlərin soyundandırlar. Ancaq bu iddianı sübut edəcək inandırıcı dəlillər yoxdur. Etimad əl-Səltənənin Gəraylıların Çingiz Xan və ya Hülaku Xanla bərabər İranın quzeydoğusuna gəlməsi təxminini əsaslandıracaq yol da yoxdur. Yalnızca Gəraylıların İrana gəldikdən sonra, Dərrəgəzlə (Məhəmmədabad) Səraxs arasında yarıyolda, Gürgandan Kəlat-i Nadirə qədər geniş bir bölgəni tutduqları bilinir. Biz eyni zamanda Səfəvilər çağında Gəraylılarla Cağatay tayfaları arasında sıx əlaqənin olduğunu bilirik. İskəndər Bəy Münşi Türkmanın yazdığına görə, Gəraylıdan üç Cağatay əmiri olmuşdur: Mirzə Əli Xan Gəraylı, hicri 935-ci (1531-1532) ildə Damğan valisinə Özbəkləri yenməyə yardım etmişdir; Mirzə Əli Xəlifə, hicri 984-də (1576-1577) Gəraylılara başçılıq etmişdir və Əlyar (Əli-yar) Xan Gəraylı, hicri 1038-ci (1528-1629) ildə Gəraylıya başçılıq etmişdir.

Hicri 1004-cü (1595-1596) ildə Gəraylının bəyi, Əli Xan I Şah Abbasa qarşı qalxdı. İki il sonra o tutularaq edam edildi. Yenə I Şah Abbas çağında Gəraylıların Xorasandakı otlaqlarından çoxu, İranın quzeybatısından buraya köçürülmüş Kürd tayfalarının əlinə keçmişdi. Gəraylı bəyi Rəhim Xanın adı Nadir Şah Avşarın (1436-1747) Əfqanlara və Osmanlılara qarşı savaşlarında seçilən sərkərdələri arasında vurğulanır. H. L. Rabino onu Gürganın valisi adlandırır. Allahyar Bəy Gəraylı Osmanlı sərkərdəsi Topal Osman Paşanı öldürmüş və kəsilmiş başını Nadir Şaha gətirmişdir. Sonralar, Ağa Məhəmməd Xan Qacar Gəraylıların bir çoxunu Gürgan və Bocnurd arasındakı Kəlpuş bölgəsindən Qarataqan, Miyandorud və Əndəruda, həmçinin şərqi Mazandaranda Sari bölgəsinin quzeydoğusu, şərqi və güneydoğusuna köçürmüşdür. Gəraylılar, 19-cu yüzildə get-gedə keçmiş əraziləri boyunca şəhər və kəndlərdə məskunlaşaraq tayfa birliyi olmaqdan çıxdılar. Bunun sonucunda, onlar ədəbiyyatda quzeydoğu İranda nadirən vurğulanmağa başladılar. Onların bir qisminin Əşrəfdə məskunlaşaraq əhalinin dörddə birini (məhəllə) təşkil etdiklərini, və Gəraylılardan təxminən 1,000 ailənin Sari – Əşrəf yolunda, Neka yaxınlığında, Nov Dehak və Çala Pol da daxil olmaqla, altı ya da yeddi kənddə məskunlaşdıqlarını öyrənirik. Biz həmçinin, 1900-cu illərin başlarında, Gürgan vilayətinin şərq rayonlarının əsasən Gəraylılarla məskun olduğunu, və 1874-cü ildə onlardan 1,000 ailənin Bocnurd və Quçan arasında Şirvan şəhərində yaşadığını bilirik.

Britaniya Donanma Kəşfiyyatının bilgilərinə əsasən, 1940-cı illərdə Xorasanın Cacərm, Cuveyn və Səbzivar bölgələrində, həmçinin, Gürganın şərqindəki düzənlikdə beş min ailə Gəraylı yaşayırdı. Afşar Sistaniyə əsasən. Gəraylılar Türkdürlər və Şiədirlər.

---

***Professor Pyer Oberlinq***

**© ATB — Azərbaycan Türkçülər Birliyi**